

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (23.825)

5 oktyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub. Dövlətimizin başçısı Tərtər şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev həmin gün Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub, Tərtər rayonunun Talış kəndində və Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını edib.

Dövlətimizin başçısı Bərdə rayonuna gəlib, ulu öndər Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, Bərdə Peşə Liseyinin açılışında iştirak edib.

* * *

Oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olan dövlətimizin başçısı Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Prezident İlham Əliyev 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının, Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib, Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub. Sonra dövlətimizin başçısı Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub.

## Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada özəl baytarlıq xidməti müəssisələri vasitəsilə baytarlıq xidmətləri göstərilməsinə mərhələli keçidin təşkili məqsədilə **qərara alıram:**

1. Xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı dövlət büdcəsindən maliyyələşdirilən baytarlıq xidmətləri Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti ilə özəl baytarlıq xidmətlərini həyata keçirən hüquqi şəxslər və fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslər (bundan sonra - baytarlıq subyektləri) arasında müqavilə bağlanması yolu ilə həyata keçirilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi məqsədilə dövlət büdcəsindən maliyyələşdirilən, dövlət sifarişi ilə göstəriləcək baytarlıq xidmətlərinin siyahısını Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin təklifləri əsasında təsdiq etsin;

2.2. sahə baytarlıq məntəqələrinin inzibati binalarının və digər dövlət əmlakının bu Fərmanın 1-ci hissəsinə əsasən müqavilə bağlayan baytarlıq subyektlərinə icarəyə verilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Dövlət Baytarlıq Xidmətinin təklifləri əsasında müvafiq tədbirlər görsün.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Dövlət Baytarlıq Xidməti və yerli icra hakimiyyəti orqanları bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 oktyabr 2021-ci il*

## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Ağayeva Ərus Mircəlil qızına
Quliyev Vidadi Əşrəf oğluna
Quliyeva İnarə Fəxrəddin qızına
Məmmədova Elnarə İslam qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 oktyabr 2021-ci il*

## Professor Tamerlan Əliyevin 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib



*Oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Tamerlan Əziz oğlu Əliyevin 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.*

Əvvəlcə professor Tamerlan Əliyevin həyat və fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri tədbiri giriş sözü ilə açaraq Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor Tamerlan Əliyevin Azərbaycan tibb tarixi salnaməsinə qızıl hərflərlə yazılmış xidmətləri, gənc həkimlərimiz üçün örnək olan çoxşaxəli fəaliyyəti haqqında danışıb. Nazir qeyd edib ki, Azərbaycan tibb elminin müasir istiqamətlərinin müəyyənləşdirilməsində, dünya səviyyəsinə çıxmasında, tibbi tədqiqatlardan dəyərli nəticələr əldə edilməsində Tamerlan Əliyev əvəzsiz xidmətlər göstərib. O, alim, həkim, pedaqoq kimi şərəfli və mənalı bir ömür yaşayıb, bütün həyatını Azərbaycan tibb elmi və səhiyyəsinin tərəqqisinə həsr edib, çox sayda elmi-tədqiqat işləri ilə elmimizə misilsiz töhfələr verib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev Tamerlan Əliyevin gənc elmi kadrların yetişməsinə, bacarıqlı, savadlı alimlər ordusu sıralarının artmasına qayğıkeşliklə rəhbərliyindən bəhs edib, unudulmaz alimin əziz xatirəsinin hər birimizin qəlbimizdə daim yaşayacağını və yad ediləcəyini bildirib.

Naxçıvan Muxtar Respublika Xəstəxanası Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyeva Tamerlan Əliyevin həyat və fəaliyyəti, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin baş müəllimi, Azərbaycan Respublikasının Əməkdar həkimi Süleyman Cəfərov onun elmi fəaliyyəti, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin professoru, tibb elmləri doktoru, "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin Cərrahiyyə şöbəsinin müdiri İsa Abdullayev alimin pedaqoji fəaliyyəti, Səhiyyə Nazirliyinin Tibbi statistika və informasiya sektorunun aparıcı məsləhətçisi Xavər Babayeva Tamerlan Əliyevin tibbi kadrların hazırlanmasındakı müstəsna rolu barədə məruzələr ediblər.

Tədbirdə Səhiyyə Nazirliyinin aparat işçiləri, bir sıra səhiyyə müəssisələrinin həkim və tibb bacıları, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Naxçıvan Tibb Kollecinin müəllim və tələbələri iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması sentyabr ayında da diqqətdə saxlanılmışdır.*

## Torpaqların su təminatı yaxşılaşdırılır



Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün sentyabr ayında da bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 11,08 milyon kubmetr su verilmiş, bunun müqabilində 9 min 308 hektar torpaq sahəsi suvarılmışdır. Ay ərzində 16,80 kilometr beton və torpaq kanal, 15,18 kilometr ara arx və 7,3 kilometr kollektor lildən təmizlənmiş, 0,45 kilometr uzunluğunda yeni suvarma boru xətti çəkilmiş, 1,08 kilometr boru xəttində isə təmir-bərpa işləri aparılmışdır. Qeyd olunan dövrdə Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 154 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Muxtar respublikada su təminatının yaxşılaşdırılmasında subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Ötən ay ərzində 79 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

Sentyabr ayında həyata keçirilən tədbirlər sırasında əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması, yaşayış məntəqələrində müasir kanalizasiya şəbəkələrinin qurulması da diqqətdə saxlanılmış, 543 metr yeni içməli su, 439 metr yeni kanalizasiya xətti çəkilmiş, 1702 metr içməli su və 430 metr kanalizasiya xəttində isə təmir-bərpa işləri aparılmışdır.

Babək, Şahbuz, Culfa və Ordubad rayonlarının kaptajlarında 450 metr hissədə, Babək rayonu ərazisində isə 200 metr qapalı drenaj sistemində təmir-bərpa işləri görülmüşdür. Eyni zamanda qış mövsümünə hazırlıqla əlaqədar içməli su və kanalizasiya sistemlərində təkrar yoxlamalar aparılmış, nasazlıqlar aradan qaldırılmış, sistemdən düzgün və səmərəli istifadə barəsində əhali ilə maarifləndirici söhbətlər aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən sentyabr ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 8 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 2 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması, 3 vergiödəyicisində malların elektron qaimə-faktura əsasında təqdim edilməməsi, 1 vergiödəyicisinə məxsus pul vəsaitlərinin uçotdan yayındırılması, 1 şəxsdə isə sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsi haqqında qəbz alınmaması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 2 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Muxtar respublika müəllimləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub

***Hər il oktyabrın 5-i "Beynəlxalq Müəllimlər Günü" kimi qeyd olunur.***

Bir xalqın, millətin formalaşmasının əsas mənbəyi elm və təhsildirsə, elmin inkişaf etdirilməsinin, müxtəlif istiqamətlərdə və peşələrdə xalqa layiqli vətəndaşlar yetişdirilməsində əldə olunan nailiyyətlərin mənbəyi isə məhz müəllimdir. Müəllimin verdiyi bilik sayəsində cəmiyyətdə təhsil, təhsildən isə inkişaf doğulmuşdur. Azərbaycan xalqının təfəkküründə müəllim adı hər zaman ziyalılıq və mənəvi saflıq rəmzi olmuş, bu şərəfli peşə sahiblərinin əməyi həmişə yüksək qiymətləndirilmişdir.

***"Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır"***, – deyən ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllimlərə böyük hörmətlə yanaşmış, onların əməyini yüksək qiymətləndirmişdir. Ulu öndərin təhsilə, müəllim əməyinə qayğıkeş münasibəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qanunvericilik bazası təkmilləşdirilir, Dövlət proqramları qəbul olunaraq icra edilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, artıq Azərbaycan dünyada sabitliyin təmin edildiyi və iqtisadiyyatı inkişaf edən ölkə olmaqla yanaşı, həm də elm və təhsil ölkəsi kimi tanınır. Ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Son illərdə bu sahədə çox böyük işlər görülüb, təhsil sahəsi daim diqqət mərkəzindədir və bu da təbiidir. Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır".***

Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsində ardıcıl tədbirlər görülür. Müstəqillik illərində muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi üçün yeni tədris korpusları tikilib istifadəyə verilmişdir. Hər il olduğu kimi, bu il də muxtar respublikanın paytaxtı da daxil olmaqla, bütün bölgələrində geniş vüsət alan quruculuq və abadlıq işlərinin önündə təhsil müəssisələrinin tikintisi dayanır. Təkcə 2021-ci ildə 5 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, hazırda 9 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir.

Təhsil müəssisələrinin müasir tədris vəsaitləri və informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilir. Muxtar respublikanın ümumtəhsil müəssisələrində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən çox elektron lövhə quraşdırılmış, laboratoriya və fənn kabinələri şagirdlərin istifadəsinə verilmiş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası bütün təhsil müəssisələrində təhsilin keyfiyyətinin yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmiş, yeni təlim üsullarının tətbiqinə əlverişli şərait yaratmışdır. Son illər məktəblərdə tədrisin müasirləşdirilməsi diqqətdə saxlanmış, qabaqcıl tədris metodlarının, o cümlədən distant təhsilin və STEAM təhsil metodunun tətbiqinə başlanılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı mövzuların tədrisi prosesində muzeylərlə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslər keçilir. Qısa müddət ərzində 53 təhsil müəssisəsində STEAM kabinəsi yaradılmış, STEAM təhsili ilə bağlı nəşrlər hazırlanmışdır. Hazırda 50 ümumtəhsil məktəbində STEAM kabinələrinin yaradılması istiqamətində iş aparılır. Ümumtəhsil müəssisələrində STEAM təhsil metodunun tətbiqi ilə yanaşı, şagirdlərin istedad və bacarıqlarının inkişafına, eləcə də onların elmi axtarışlara sövq edilməsinə yönəlmiş bir sıra layihələr də tətbiq olunur. Bu layihələrdən biri də 2019-2020-ci tədris ilindən tətbiq edilən "Sabahın tədqiqatçıları" layihəsidir. Layihə çərçivəsində Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəblərindən xüsusi istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin alimləri tərəfindən elmi himayəyə götürülür, şagirdlərlə birgə laboratoriyalarda tədqiqatlar aparılır, məruzə, tezis, referat və hesabatlar hazırlanır. Bunlarla yanaşı, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqətdə saxlanılır, məhdud fiziki imkanlı uşaqlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün isə distant audio və elektron kitabxana yaradılmışdır.









Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirən müəllimlərin əməyi dövlətimiz tərəfindən daim qiymətləndirilmişdir. Ümumilikdə, müstəqillik illərində 400-dən çox müəllim Azərbaycan Respublikasının "Əməkdar müəllimi" və Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Muxtar respublikada müəllim əməyinin qiymətləndirilməsi ilə yanaşı, onların maddi rifah halının yüksəldilməsi də diqqətdə saxlanılır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqı artırılmış, cari ilin fevral ayında isə təhsil sahəsi ilə bağlı qanunvericilikdə edilmiş bir neçə dəyişikliklə ucqar kəndlərdə işləyən gənc kadrların əməkhaqlarına olunan əlavələr, xüsusi təhsilə cəlb olunanların valideynlərinə, təhsilini ali və orta ixtisas təhsili müəssisələrində davam etdirən valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olanlara ayrılan müavinətlər əhəmiyyətli şəkildə artırılmışdır.

Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi, müəllim əməyinə verilən yüksək qiymət, təhsil müəssisələrində yaradılan müasir tədris şəraiti müəllim əməyinin bəhrələrini daha da artırır, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır. Bütün bunların sayəsində muxtar respublikada 2020-2021-ci tədris ilinin nəticələri də uğurlu olmuş, qəbul imtahanlarında yüksək nəticələr əldə edilmiş, tam orta təhsil bazasını bitirən məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 41-i fərqlənmə attestatına, ümumi orta təhsil bazasını bitirənlərdən isə 121-i fərqlənmə attestatına layiq görülmüş, şagirdlərdən 26-sı Respublika fənn olimpiadasının qalibi olmuşdur. Qəbul imtahanlarında iştirak edən 2695 məzundan 1932-si və ya 72 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Məzunlardan 261-i imtahanlarda 500-700 bal arası nəticə göstərmişdir. 2020-2021-ci tədris ilində 500 və daha artıq bal toplayan 261 məzundan 65-i müəllimlik ixtisasını seçmişdir.

Muxtar respublikada təhsil sahəsində keyfiyyət göstəricilərinin son illərdə yüksəlməsinə aparılan sistemli tədbirlər nəticəsində, xüsusilə müəllimlərin işə qəbulu prosesində obyektivliyi təmin etməklə nail olunmuşdur. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 aprel 2018-ci il tarixli Qərarına uyğun olaraq, ümumilikdə, 2018-ci ildən bu günədək işə qəbulla bağlı 10 müsabiqə keçirilmiş, 726 gənc kadr işlə təmin olunmuşdur.

Muxtar respublikada müəllimlərin təkmilləşdirilməsi, eləcə də peşəkarlıq səviyyəsinin yoxlanılması istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 19 iyun 2020-ci il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası" təsdiq edilmiş, qərara uyğun olaraq cari ilin yanvar-may aylarında təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan təhsilverənlərin ödənişsiz sertifikasiyası keçirilmişdir. Həmçinin son illərdə təhsil müəssisələrində şahmatın tədrisinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə şahmatı tədris edən 500-dən çox müəllimə də ödənişsiz sertifikasiya imtahanları keçirilmişdir. Bunlarla yanaşı, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün konfranslar, təlim və seminarlar keçirilir. Təkcə ötən tədris ilində 1200-dən çox müəllim müxtəlif istiqamətlərdə təlimlərə cəlb edilmişdir. Həyata keçirilən tədbirlər müəllimlər arasında sağlam rəqabəti və motivasiyanı gücləndirmiş, cari tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsində muxtar respublika müəllimlərindən 4-ü qalib olmuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikasında keyfiyyətli tədris mühitində öz sənətini sevən kifayət qədər peşəkar müəllim ordusu yetişmişdir. Muxtar respublikada müəllim olmaq istəyənlərin sayının artması da elə məhz bu peşənin cəmiyyətdə nüfuzunun yüksəldilməsinə verilən dəyərdən qaynaqlanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır".***

Peşə bayramlarını qeyd edən muxtar respublika müəllimləri bundan sonra da Ali Məclis Sədrinin tövsiyələrini əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirəcək, təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Gənc əməkdaşlar ilə görüş keçirilib

AMEA Naxçıvan Bölməsində çalışan gənc əməkdaşlarla görüş keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev yığıncaqda çıxış edərək 21 sentyabr 2021-ci il tarixdə keçirilən müşavirədən irəli gələn vəzifələrlə bağlı gənc tədqiqatçıları məlumatlandırıb.



Akademik diqqətə çatdırıb ki, AMEA Naxçıvan Bölməsinin maddi-texniki bazası ilbəil təkmilləşdirilir, elmi tədqiqatların, çöl tədqiqatlarının aparılması üçün hərtərəfli şərait yaradılıb. Gənc tədqiqatçılar da, öz növbəsində, elmin inkişafina göstərilən diqqət və qayğıdan səmərəli istifadə etməli, öz sahələri çərçivəsində elmə xidmət etməyi bacarmalı, yüksək elmi əhəmiyyəti olan məqalələr beynəlxalq elmi ictimaiyyətinə təqdim olunmalıdır. İxtisaslı alim və tədqiqatçı-mütəxəssislərin hazırlanmasının önəmini vurğulayan bölmə rəhbəri gənclərin apardıqları tədqiqatların gedişatı ilə maraqlanıb.

Bölmə alimlərindən bir qrupunun iştirak etdiyi tədbirdə gənclərin elmi təqdiqatları ilə əlaqədar qazandıqları nailiyyətlər təhlil olunub, qarşılaşdıqları problemlər dinlənilərək müvafiq tövsiyələr verilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## "Sağlam ol!" layihəsi davam edir

***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin həkim, rezident və tələbələrinin muxtar respublikanın ümumtəhsil məktəblərinin kollektivləri ilə "Sağlam ol!" layihəsi çərçivəsində görüşləri davam edir.***

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin müəllim və şagirdləri ilə keçirilən görüş də yaddaqalan olub. Məktəbin direktoru Şahbaz Məhərrəmov belə tədbirlərin əhəmiyyətini vuğulayaraq təşkilatçılara minnətdarlığını bildirib.

Tibb fakültəsinin dekanı Elsevər Əsədov çıxış edərək layihənin məqsədi haqqında məlumat verib. Qeyd edib ki, görüşün əhəmiyyəti tibb sahəsinə marağı olan şagirdlərin gələcəkdə bu sahədə təhsil almaq üçün onları həvəsləndirmək, eyni zamanda hər kəsin bilməli olduğu ilk tibbi yardım barədə ətraflı məlumatlar verməkdən ibarətdir. Elsevər Əsədov, eyni zamanda ali təhsil ocağının imkanları və fakültədə yaradılan müasir tədris şəraiti barədə tədbir iştirakçılarını məlumatlandırıb. Diqqətə çatdırılıb ki, müasir standartlara cavab verən və ən son texnologiyalarla təmin olunan fakültədə kabinə və laboratoriyalar, auditoriyalar var. Qeyd edilib ki, Tibb fakültəsinin məzunları bu gün həm ölkə daxilində, həm də xaricdə uğurla fəaliyyət göstərirlər.



Sonra fakültənin həkimləri məktəb kollektivinə ixtisaslar barədə məlumatlar verib və maarifləndirici söhbətlər aparıblar.

Daha sonra fakültənin müəllimləri – ginekoloq Gültəkin Əliyeva, cərrah Cəbi İsmayılov, pediatr Mətləb İbrahimov, bioloq Mürsəl Seyidov, reanimotoloq Bəxtiyar Hüseynov İnsan anatomiyası və Biologiya fənlərindən nümunəvi dərslər keçiblər.

Ümumi təbabət və kliniki fənlər kafedrasının baş müəllimi Bəxtiyar Hüseynov "İlk tibbi yardım" simulyasiyaları haqqında çıxış edərək həyati təhlükənin aradan qaldırılması üçün olduqca vacib olan ilkin tibbi yardımın əhəmiyyətindən danışıb. Tibb fakültəsinin tanıtım videoçarxı izlənilib. Sonra "İlk tibbi yardım" simulyasiyasının və tələbələrin çıxışlarının təqdimatı olub. Tədbirdə Suada Vahabova "Kliniki ölüm", Həqiqət Ələsgərli "Qanaxmalar", Şəbnəm Salmanova "Sınıqlar", Aytac Əliyeva "Torpaq altında qalma" mövzuları ətrafında slayd və səhnəciklərlə çıxış ediblər. Qeyd edək ki, çıxışlar şagirdlər tərəfindən maraqla qarşılanıb və onlar səhnəciklərdə iştirak ediblər.

Tədbirdə, həmçinin "Sağlam gülüş" adı ilə "Dişlərin sağlamlığı və gigiyenası" və "Zərərli qidalar" mövzusunda çıxışlar dinlənilib və şagirdlərin sualları cavablandırılıb.

Sonda fakültənin həkim və rezidentlərinin iştirakı ilə ginekoloji, oftalmoloji, pediatrik, stomatoloji, kardioloji və ümumi terapevtik müayinələr həyata keçirilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

"Şərq qapısı" – 100

# Dünənin və bu günün güzgüsü haqqında qeydlərim




Sizə kimdən danışım, kimdən deyim, bir əsr yaşayan, bir əsrdir, xalqı ilə nəfəs alan, dil açıb oxucuları ilə danışan, çətinliklərə baxmayaraq, durmadan, dayanmadan nəşr edilən, yurdunun gözəlliklərini, keşməkeşli günlərini, bugünkü qürurverici inkişafını öz səhifələrinə köçürən "Şərq qapısı" qəzetindən. Bu yurdda yaşayan elə bir ziyalı tapılmaz ki, heç olmasa bir neçə dəfə bu yüzyaşlı "qoca" ilə rastlaşmasın. Elə bir ziyalı yoxdur ki, onun, necə deyərlər, "şinelindən çıxmasın". Bəli, yüz ildir, "onun şinelindən neçə-neçə ziyalılar çıxıb". Mənim onunla ilk tanışlığım isə 2002-ci ilə təsadüf edir. Yazdığım ilk məqaləni, ya da məqalə zənn etdiyim yazımı əlimə götürüb böyük bir binanın birinci mərtəbəsinə sığdırılmış redaksiyanın kiçik pəncərələrindən bütün respublikaya yayılan nurdan pay almağa gəlmişdim. Həmin illərdə redaktor olan mərhum Məmməd Məmmədovun otağına ilk addımımı atanda və Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin tələbəsi olduğumu deyəndə səmimi bir tərzdə məni qarşıladı və mənə yol göstərməsi üçün indi məsul katibimiz olan, həmin illərdə müxbir kimi fəaliyyət göstərən Muxtar Məmmədova tapşırdı. Üçüncü və dördüncü kursda oxuduğum illərdə əməkdaşlığımız davam etdi. Əlimə qələm aldığım həmin illərdə universitetin rektoru, akademik İsa Həbibbəylinin, mərhum Hüseyn Həşimlinin, Seyfəddin Eyvazovun mənə və mənim kimi bir çox tələbəyə dəstəyindən güc alır, həvəslənirdim. Sonrakı illərdə ailə vəziyyətimə görə Naxçıvanımdan ayrılası olduğum üçün işləyə bilməsəm də, cəmi iki il burada şahid olduqlarım, öyrəndiklərimi heç vaxt yadırğamadım. İllərlə – nə az, nə çox 15 il cəbhə bölgəsində, düşmənin beş-on metrliyində yaşadığım illərdə orada gördüklərimi qəlbimə yığıb saxladım. İllərlə düşmənin xarabaya çevirdiyi torpaqlarımızın harayını dinlədim və bir gün bu yurd yerlərinin azad olacağına inandım. Bir aprel səhəri yaşadığımız Goranboy rayonunun Ağcakənd qəsəbəsinin sakinləri ilə bərabər, şimşək kimi gurultu səsinə oyandım. Bu, Qələbənin səsi idi. İllər sonra gələn Zəfərin səsi. Aprel zəfərindən sonra hərbçi həyat yoldaşımın xidməti vəzifəsinin davamı üçün Naxçıvana köçürüldük. Və mən illər sonra qeyri-ixtiyari olaraq yenə o ünvana – tələbəlik illərində gəlib-getdiyim o doğma ocağa üz tutdum. Bu dəfə də vətənpərvərlik mövzusunda yazmışdım ilk dəfə olduğu kimi. Həmin o köhnə ünvandan yeni binaya köçürülmüşdü doğma qəzetim. Üçmərtəbəli, işıqlı hər bir şəraitə malik redaksiya. Bir üstünlüyü də ondadır ki, mətbəə də bu binadadır. Daha əvvəlki kimi uzağa getməyə ehtiyac qalmayıb. İndi əvvəlki kimi qadınlar mətndəki hərfləri bir-bir yığmır. Kompüter otağında müasir avadanlıqlar quraşdırılıb. Artıq beş ilə yaxındır ki, əməkdaşı olduğum, qədim diyarın güzgüsünə, ziyalılarının söz meydanına çevrilən bu mətbu orqana hər il göstərilən dövlət qayğısına şahidlik edirəm. Hər nömrəsində oxucularını ümummilli liderimiz Heydər Əliyevin ***"Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır"*** müdrik kəlamları ilə salamlayan və yeni bir mətbuat tarixini yazan yüzyaşlı qəzet artıq illərdir ki, muxtar respublikada təhsilə, səhiyyəyə, mədəniyyətə göstərilən sonsuz dövlət qayğısından, bu gün kəndlə şəhərin inkişaf oxşarlığından, ilanmələyən çöllərə, kəndlərə çəkilmiş içməli su və kanalizasiya sistemlərindən, istifadəyə verilən artezian quyularından, gözoxşayan yaşıllıq zolaqlarından, əsrarəngiz gözəlliyi ilə yaddaqalan yaylaqlarından, barlı-bərəkətli bağlarından, dünya şöhrətli Duzdağın, Gəmiqayanın möcüzələrindən, min bir dərdin dərmanı olan "Sirab", "Badamlı", "Vayxır" mineral sularından, minlərlə yeni tikinti obyektlərindən, od-ocağımızı işıqlandıran Külək, Günəş elektrik stansiyalarımızdan söz açır. Xalqımızın tarixiliyini, milli və mənəvi mədəniyyətini işıqlandırır, özünün inkişaf və tərəqqi dövrünü yaşayan, öz simasını dəyişən qədim Oğuz elindən dünyaya səs salır. Şərqin qapısı sayılan və çoxəsrlik tarixə və milli mədəniyyətə malik olan Naxçıvan torpağının keçmişini və bu gününü öz səhifələrində işıqlandırmaqla gələcəyimizə zəngin bir tarixi mənbə yaradır.

Bir vaxtlar dünya azərbaycanlılarının bir araya gəlməsi, Vətən üçün bir yumruq kimi birləşməsi qərarı buradan pərvazlandı. Çox xoşbəxt insanlarıq ki, yüz yaşını qeyd etdiyimiz qəzetimizin səhifələrində, Aprel, Günnüt zəfərlərindən bəhs edə, Qarabağ dastanını yaza bildik. Zəngilanın, Qubadlının, Şuşanın, Laçının azadlığını, düşmənin diz çökdüyünü, təslim olduğunu, Şuşada "Xarıbülbül" musiqi festivalının keçirildiyinin, Şuşa Bəyannaməsinin imzalandığını oxucularımızla bölüşə bildik. Vətən müharibəsində öz igidlikləri ilə əfsanəyə dönən ömürlərdən söhbət açdıq. Elimizin lazım gələndə necə bir yumruq kimi birləşə, düşmənin başına şimşək kimi çaxa bilməsindən, öz qocalıq müavinətini orduya bağışlayan babalarımızdan, oğlunun dəfnində: "Sinəndən vuruldun, ancaq düşmənin qarşısından qaçmadın, sənə halal olsun", – deyən Azərbaycan qadınından danışdıq, Böyük Qələbənin yazarı olduq. Yüzyaşlı bir "qoca" da gəncləşdi səhifələrində Qələbə xəbərlərini daşıdıqca. O da bizim kimi qürurlandı tarixin tozlu səhifələrini vərəqləyəndə onun arxivindən qələbə xəbərləri oxunacaq deyə.

Deyirlər ki, bir ömür xoşbəxt olmaq istəyirsənsə, sevdiyin işlə məşğul ol. Qələmi əlimə aldığım gündən mən özümü həmin o xoşbəxt insanlardan hesab edirəm. Bu necə hikmətdir, bilmirəm, amma ən çətin anlarımda belə, əlimə qələm alıb yazmağa başlayanda bütün çətinliklər məni tərk edir. Sənətini, gördüyü işi ürəkdən sevən hər kəs yaratdığı bir əsərə, ya da ki gözəl bir rəsmə, qələmə aldığı məqaləyə illər sonra baxanda qürurlanır. Çalışdığı işi ürəkdən sevə bilmək, onu aşiq olmaq isə hər kəsə nəsib olmur. Mənim üçün yazmaq, sadəcə, bir qələm və ağ kağızdan ibarət deyil, yazmaq həm də Vətənini qəlbən sevməkdir. Bu sevgini, bu işləmək, yazıb-yaratmaq həvəsini daha da yüksəklərə qaldıran isə dövlət qayğısını öz üzərimizdə hiss etməyimizdir. Bir də deyirlər ki, jurnalistlər ən az ömür sürən peşə sahibləridir. Bəlkə də, ona görə belədir ki, jurnalist hər hansı bir məqaləni hazırlamağa başlayandan yazıb qurtarana qədər təkcə seçdiyi "obyekti" deyil, geniş oxucu kütləsini düşünür, özünü bu yazıya, təbii ki, müxtəlif mövqelərdən yanaşacaq oxucularının yerinə qoyur, xəyalən onlarla "söhbət edir", ən çox isə "eşitdiyi" iradları ürəyinə salır. Sonra qaralmış vərəqləri əzib bir kənara atır, yenidən işləyir, çalışır ki, yazısı, ilk növbədə, oxucunun tələblərinə cavab verə bilsin. Beləcə, ömrünü saatbasaat, günbəgün əridir bu ağ vərəqlər üzərində. Nikbinliyini də gizlətmir, bilir ki, araya-ərsəyə gətirdiyi yaxşı yazılar insanlar üçün, bütövlükdə, bu həyat üçün həmişəyaşardır və yaşadıqca müəllifini də yaşadacaqdır. Yazmaq və yazdıqlarının tarixdə yaşayacağını bilmək qürurvericidir. Bəzən gecəyarıya, bəzən də gündoğana kimi qəzetin hazırlanmasında məsul olsam belə, heç yorulmur, zövq alıram. Bu qocaman qəzetin əməkdaşı olan gündən onun yüz yaşının tamam olacağı günü səbirsizliklə gözləyənlərdən biri olmuşam. Bu gün doğma evimizin yüz yaşı münasibətilə keçirilən tədbirlərin iştirakçılarından biri olduğum üçün qürurluyam.

*Yüzüncü yaş günün mübarək, doğma evimiz. Bundan sonrakı səhifələrin də xoş xəbərlərlə, doğma Naxçıvanımızın gözəl günləri ilə bəzənsin. Zəngəzur dəhlizindən keçərək qatarların, avtomobillərin Naxçıvan gəlişindən, doğma yurdumuzun çiçəklənən günlərindən yazmaq diləyi ilə...*

✍ **Ramiyyə ƏKBƏROVA**

***Məqalə "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Şəhid ailələri və qazilərə tibbi xidmət aksiyası keçirilib

***"Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxs Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə və qazilərimizə ödənişsiz tibbi xidmət aksiyasını davam etdirir.***



Ötən şənbə günü Vətən müharibəsi qazilərini və onların ailə üzvlərini evdə müayinə etmək üçün xəstəxananın həkim briqadaları Culfa və Kəngərli rayonlarında olub. Aksiyalarda şəhidlərin ailə üzvləri, həmçinin qazilərimiz və onların ailə üzvləri heç bir kassa ödənişi etmədən, tibbi sığorta göndərişi tələb olunmadan laborator-diaqnostik müayinələrdən keçirilib, digər tibbi xidmətlərdən yararlanıblar. Kəngərli rayonunda 15 nəfər həm xəstəxana, həm də ev şəraitində müayinələrdən keçirilib. 2 şəhid anasının dişlərinin müayinəsi və protez qoyulması ödənişsiz həyata keçirilib.

Laborator müayinələrdən keçənlərə müvafiq tibbi yardım göstərilib, müvafiq təyinat və məsləhətlər verilib. 3 nəfər göz xəstəliklərinin müayinəsi üçün mərkəzə dəvət edilib.

Xəstəxananın qəbul şöbəsinin müdiri Ramidə Bağırova bildirib ki, Culfa rayonunda 14 şəhid ailəsinin 60 üzvü 450 tibbi müayinədən keçirilib. Bir neçə xəstədə diz oynağı xəstəlikləri aşkarlanıb. Həmin nahiyənin oynaqlarına manipulyasiyalar olunub, xəstəxana tərəfindən dərmanlarla təmin edilib. 4 nəfər MRT müayinəsi və dərin tibbi müayinələr, 3 qazi isə rentgenoloji və fizioterapevtik müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib.

Diş problemi olan şəhid valideynləri və həyat yoldaşlarının 4 implant əməliyyatı, 57 diş qapağının qoyulması və digər müalicələrini oktyabrın sonunadək başa çatdırmaq nəzərdə tutulub.

Vətən müharibəsi qaziləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada ailə başçısını itirməyə görə əmək pensiyası qanunvericiliyə uyğun təyin edilir

***Ölkəmizdə həyata keçirilən sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindən biri pensiya təminatı sistemi ilə bağlıdır. Görülmüş işlərin nəticəsi kimi sosial baxımdan yüksək pensiya təminatı sisteminin yaradılmasına nail olunub. Hazırda ölkədə tətbiq olunan pensiya sistemi fərdi uçot əsasında sosial sığorta prinsiplərinə uyğun şəkildə fəaliyyət göstərir. Həmin sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuş sığortaolunanlara fərdi hesablar açılaraq, ödənilən məcburi dövlət sosial sığorta haqlarının bu hesablarda uçotunun aparılması, vətəndaşların pensiya hüquqlarının dəyər ifadəsində həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi mexanizmi yaradılıb.***

Əmək pensiyası qanunla nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və sığortaolunanların onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əməkhaqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq pul ödənişidir. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq əmək pensiyasının növlərindən biri kimi ailə başçısını itirməyə görə əmək pensiyasının təyin edilməsi və hesablanması qaydası qanunvericilikdə nəzərdə tutulmuş müvafiq şərtlərə uyğun olaraq təyin edilir. Vəfat etmiş və ya həlak olmuş ailə başçısının qanunvericilikdə göstərilən ailə üzvlərinin (vəfat etmiş və ya həlak olmuş şəxslərin 18 yaşına çatmamış övladları; 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş 18 yaşından yuxarı sağlamlıq imkanları məhdud olan şəxslər, təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək; ata, ana, ər, arvad müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud I və ya II dərəcə sağlamlıq imkanları məhdud olan şəxsdirsə, yaşından və əmək qabiliyyətindən asılı olmayaraq, valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə) nəzərdə tutulan şərtlərlə ailə başçısını itirməyə görə əmək pensiyası hüququ var. Ailə başçısını itirməyə görə əmək pensiyası ailə başçısının ölüm günündədək sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. Təyin edilmiş pensiyanın ailəyə düşən ümumi məbləği əmək pensiyasının minimum məbləğindən az olduqda həmin məbləğə çatdırılmaqla ödənilir.

Ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinin hər birinə düşən pensiyanın məbləği ailə üçün hesablanmış ümumi məbləğin əmək qabiliyyəti olmayan ailə üzvlərinin sayına bölünməsi yolu ilə müəyyənləşdirilir. Məsələn, vəfat etmiş şəxsin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan 2 nəfər ailə üzvü ailə başçısını itirməyə görə pensiya təyin olunması üçün müraciət ediblər və 248 manat məbləğində əmək pensiyası təyin olunub. Vəfat etmiş şəxsin pensiya məbləği onun iki nəfər ailə üzvü arasında bölünəcəkdir (248:2=124 manat).

Vəfat etmiş, yaşa və yaxud sağlamlıq imkanları məhdudluğa görə əmək pensiyaçısı olmuş ailə başçısının ailə üzvləri üçün ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği, vəfat etmiş ailə başçısının pensiyasının məbləğinin əmək qabiliyyətli olmayan ailə üzvlərinin sayına nisbəti şəklində müəyyənləşdirilir. Məsələn, yaşa görə əmək pensiyaçısı olan ailə başçısı 1 fevral 2021-ci il tarixdə vəfat edib. Onun pensiyasının məbləği 264 manat təşkil edib. 20 iyul 2021-ci il tarixdə onun arvadı ailə başçısını itirməyə görə əmək pensiyası təyin olunması üçün müraciət edib. Vəfat edən pensiyaçının pensiyasının məbləği (264 manat) onun arvadına sığorta hissə kimi ödənilməlidir.

29 dekabr 2020-ci il tarixdə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilərək 1 yanvar 2021-ci il tarixdən həmin qanunun 14-cü maddəsindəki "öhdəsində olan (vəfat edənin tam təminatında olan və ya ondan özlərinin yaşayışı üçün daimi və əsas vəsait mənbəyi kimi kömək alan)" sözləri çıxarılmış, bununla da ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ailə üzvlərinin sayı artmışdır. Belə ki, 2017-ci il iyul ayının 1-dən 2021-ci ilin yanvar ayının 1-dək ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği, vəfat etmiş ailə başçısının ailə üzvləri onun tam təminatında olduqda əməkqabiliyyətli olmayan ailə üzvlərinin sayına nisbəti şəklində müəyyənləşdirilirdi. Qanunvericilikdə edilmiş dəyişikliyə əsasən isə 2021-ci ildən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği, vəfat etmiş ailə başçısının ailə üzvləri onun tam təminatında olub-olmamasından asılı olmayaraq, əməkqabiliyyətli olmayan ailə üzvlərinin sayına nisbəti şəklində müəyyənləşdirilir. Məsələn, ailə başçısını itirməyə görə ailəyə ayda 280 manat məbləğində əmək pensiyası təyin edilib. Vəfat etmiş şəxsin pensiya məbləği ailənin əmək pensiyası almaq hüququ olan 4 nəfər üzvü arasında bölünərək verilib (280:4=70 manat). Ailə başçısını itirməyə görə hesablanmış əmək pensiyasının hər birinə düşən məbləği "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş ailə başçısını itirməyə görə sosial müavinətin məbləğindən (hazırda ailə başçısını itirməyə görə sosial müavinətin məbləği 80 manatdır) az olduğu üçün əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər biri ailə başçısını itirməyə görə pensiya əvəzinə ailə başçısını itirməyə görə sosial müavinət almaq hüququna malikdirlər.

Qeyd edək ki, pensiya sistemi ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna müraciət edən vətəndaşlarla iş daim diqqət mərkəzində saxlanılır. Onların müraciətləri qanunvericiliyin tələblərinə müvafiq qaydada həll edilir. Həmçinin fondun *dsmf@nakhchivan.az* elektron poçt ünvanına müraciət edən şəxslərin müraciətləri də araşdırılaraq operativ şəkildə cavablandırılır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# ZƏFƏR YOLU



Soldurub baharını, gətirdik sərt qışını,
Axıdıb bu yerlərdə düşmənin göz yaşını,
Dəmir yumruqla əzdik onun murdar başını.
Bu yol qeyrət, cəsarət, bu yol hünər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Ali Baş Komandanım, yaşa, var ol, yüz yaşa!
Saldığın Zəfər yolu tamaşadır, tamaşa,
Bu yolu tutmalıyıq başdan-başa qumaşa.
Bu yol ata arzusu – bu yol Öndər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Onun hər qarışına qarışıb şəhid qanı,
Bu qanlarla qurtardıq qandan Azərbaycanı.
Oğlum, nəvəm, qardaşım, bu yolu sən də tanı.
Bu yol qorxu bilməyən hünərvərlər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Bu yolda dəfn eylədim içimdəki qorxunu,
Həqiqətə çevirdim əfsanəni, yuxunu,
Sancdı düşmən köksünə igidlərim oxunu.
Bu yol qəlbə rahatlıq gətirən nər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Yamyaşıl meşələrin nəğməsi necə şirin,
Kölgəsi gün görməyir, kölgəsi necə sərin.
Bu zümrüd meşələrin, bu dərin dərələrin
Hər biri xoş müjdələr verən xəbər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Sıldırım qayaları öpürəm gözlərimlə,
Oxşayıram hər izi, cığırı sözlərimlə,
Öyünür, fəxr edirəm dağımla, düzlərimlə.

Daha bu yol nə həsrət, nə də qəhər yoludur,
Bu yol Şuşaya gedir, bu Yol Zəfər yoludur!

Otuz illik həsrəti qırx dörd gündə dağıdan,
Ey qəhrəman qazilər, sizə hər an can qurban.
Bu yolda şəhidləri unutmadım bircə an.
Bu yol cəsur, qəhrəman, igid əsgər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Ulu Naxçıvanımın qorxmaz, ər oğulları,
Oxudum qayalarda siz yazan nağılları!
Dağa qalxan maşınlar, sanki durna qatarı
Qalxır Şuşaya sarı, qala-şəhər yoludur,
Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!

Ədalətinə şükür, ey qoca, gidi dünya,
Mən Cıdır düzündəyəm – nə yuxudur, nə röya.
Burdan – Cıdır düzündən səslənərək dünyaya
Deyirəm: – Bu qələbə, zəfər, bu ər yoludur,
Bu yol Şuşaya gəlir, bu yol Zəfər yoludur!

**Asim YADİGAR**

Müəllim… İlk baxışda sadə bir peşəni xatırlatsa da bu söz, dərin bir məna kəsb edir, əslində. Elə bir məna ki onu Platon "Tanrının şah əsəri" olaraq dəyərləndirib, Henri Bruks Adams isə "əbədiyyətə hökm edən insan". Məhəmməd Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayıb, Həzrəti Əli isə "mənə bir hərf öyrədənin qulu olmağa hazıram", – deyib. Nizami Gəncəvi müəllimi Günəşə bənzədib, Viktor Hüqo isə insanları aydınlığa çıxaran işığa… Daha kimlər, kimlər müəllimlə bağlı dahiyanə fikirlər səsləndirib. İnsan həyatında, mənəviyyatında, insani keyfiyyətlərin formalaşmasında müəllimin əvəzolunmaz əməyi, zəhməti var. Çünki əsl müəllim təkcə bilik verən deyil, məşhur rus yazıçısı Nikolay Vasilyeviç Qoqolun da dediyi kimi, ruhu tərbiyə edəndir...

## "Müəllimlik etmək" başqadır, "müəllim olmaq" başqa…



Bəli, müəllimlik elə bir peşədir ki, bu peşə sahiblərinin ömrü yanar şama bənzəyir. O şam yandıqca ətrafa işıq saçır, nur paylayır. Elə bir nur ki neçə-neçə insanın həyat yolunu işıqlandırır. Elə ömrünün 36 ilini şagirdlərinin yolunda şam kimi əridən Elmira Səfərova kimi. Onun 36 illik müəllimlik həyatında yolun enişləri də olub, zirvədən soraq verən anları da. Elmira müəllim üçün ən böyük zirvə isə şagirdlərinin adının yüksəkliyidir. Enişlərdə büdrəməyib, zirvələrdəki sorağından ürəyi daha da təpərlənib, onun müəllimlik peşəsinə olan məhəbbətini daha da artırıb...

Cəmşid Naxçıvanski adına 11 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Elmira Səfərovaya ünvanladığım: "Necə oldu ki, bu peşəyə maraq göstərib, bu peşəni sevib, seçdiniz?" – sualını o, belə cavablandırır: "Hələ uşaqkən, heç oxumağı, yazmağı da bilməyən vaxtlarımda qonşu uşaqları ilə bir araya toplaşar, "müəllim-şagird" oynayardıq. Bizim uşaqlıq çağlarımızın klassik oyunları idi belə oyunlar. Bir jurnal düzəltmişdi anam mənim üçün. Qələmlə xətləyib, qonşu uşaqlarının adını yazmışdı həmin jurnala. Demişdi ki, bax, bu sənin jurnalındı. Uşaqlardan dərs soruşanda kim yaxşı cavab versə buraya "5", kim pis cavab versə "2" yazarsan. Oxumağı, yazmağı bacarmasam da, anam mənə 1-dən 10-a qədər rəqəmləri öyrətmişdi deyə, kimin adı hansı sıradadır, əzbərləmişdim. Onlardan şeirlər, nağıllar soruşar, adının qarşısına qiymətlər yazardım. Elə həmin "jurnal"dan başladı mənim müəllimlik peşəsinə məhəbbətim.

Məktəbi fərqlənmə ilə bitirən Elmira Səfərova ozamankı Naxçıvan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alır. Oxuduğu müddətdə o, bir çox nailiyyətlər qazanır. Ən böyük nailiyyəti isə Lenin təqaüdünə layiq görülməsi olur. Elmira Səfərova deyir ki, o zaman Lenin təqaüdçüsü adını daşımaq hər bir tələbənin arzusu idi. Nüfuzuna görə bu təqaüd yüksək ad sayılırdı və bu ada ancaq əla qiymətlərlə oxuyan, ali təhsil müəssisəsinin ictimai həyatında fəal iştirak edən, erkən elmi işlərlə məşğul olan tələbələr layiq görülürdü.

Gələcəyin qurucularının Vətənə məhəbbət, dövlətə sədaqət, elə, obaya qayğıkeş, əməksevər övlad kimi yetişdirilməsi üçün ömrünü şam kimi əridən Elmira Səfərova deyir ki, universiteti bitirdikdən sonra Naxçıvan Komsomol Təşkilatında uçot bölmə müdiri vəzifəsində çalışıb. Daha sonra Cəmşid Naxçıvanski adına 11 nömrəli tam orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini olaraq işə başlayıb. Elmira müəllim deyir ki, hələ uşaqlıqdan müəllim olmaq arzumu ürəyimdə qoymadım. Vəzifəmdən imtina edib, məktəbdə yeni açılan ibtidai sinif üzrə 16 uşaqla ibtidai sinif müəllimi olaraq dərsə başladım. İlk dəfə dərsə başladığım günü heç unutmaram. Sinfə daxil olduğum o gün, sanki həyata atdığım ilk addım oldu. Bütün qəlbimlə sevdim işimi, şagirdlərimi. Sevgiylə öyrətdim qələm tutmağı, oxumağı, yazmağı. Könül bağçamda əkdiyim fidanlar böyüdükcə güllük-gülüstana döndü.

Elmira müəllim deyir ki, bir müəllim üçün ən vacib olan səbir və vicdandır. Səbirsiz insan müəllim ola bilməz. Bəzən gecə yastığa baş qoyduqda keçdiyim dərsdə hansısa cümləni deməmişəm ağlıma gəlir, cəld yerimdən qalxıb, onu bir kağıza qeyd edirəm ki, sabah mütləq uşaqlara həmin fikri çatdırım. Hər zaman öz-özümə sual verirəm: "Məktəb mənə nə verdi?" Məktəb mənə sayı-hesabı olmayan övladlar verdi. Elə övladlar ki mən hər zaman onlara baxanda qürur hissi keçirdim, fərəhləndim. Onların uğurunu, nailiyyətini görəndə elə bildim ki, bütün dünya mənimdir.

36 illik müəllimlik dövründə heç unutmadığı bir xatirəni bizimlə paylaşan Elmira müəllim deyir ki, hələ dərs keçməyə yeni başlayan zamanlarda Rəvanə adlı bir şagirdim vardı. Tapşırıq vermişdim uşaqlara, baxdım ki, Rəvanə yazmır. Hirsləndim ki, sən niyə yazmırsan? Yaz. Uşaq dəftərini büküb, qəzəbli bir şəkildə kənara atdı. O andan anladım ki, uşaqlara dərsi sevgiylə aşılamaq lazımdır. Onlara sevgi vermədən, təhsil vermək olmaz. Yaxşı müəllim olmaq üçün uşaqları sevməyi, onlara qayğı göstərməyi bacarmaq lazımdır. Əgər müəllim şagirdini sevsə, mütləq özü də seviləcək, onun tədris etdiyi fənn də. Əsəbiləşməklə, acılamaqla şagirdə heç nə öyrətmək mümkün deyil. Həmin gündən Rəvanəyə o qədər sevgi aşıladım ki, məktəbi fərqlənmə ilə bitirdi. Yüksək balla universitetə qəbul oldu, İngilis dili ixtisası üzrə oxudu. Hazırda tərcüməçi olaraq çalışır, tez-tez zəng vurur, kefimdən xəbər tutur. 30 il əvvəl dərs dediyim uşaqların hələ də məni arayıb-axtarması mənim ən böyük xoşbəxtliyimdir.

Elmira müəllimin qəlbini riqqətə gətirən digər bir xatirə isə Vətən müharibəsində iştirak edən şagirdinin müharibədən qayıdarkən evlərinə getməmiş müəlliminin görüşünə gəlməsi olub. Bu xatirəni bizimlə paylaşarkən belə, sevincdənmi, yoxsa fərəhdənmi gözləri dolan müəllim deyir ki, bir gün dərsdə idim. Bir müəllim yoldaşım gəldi ki, Elmira müəllim, sizi bir nəfər soruşur. Foye tərəfə keçdim, baxdım ki, əsgər formasında bir nəfər məni görən kimi əsgər salamı verdi. Başından əsgər papağını çıxardıqda illər öncə dərs dediyim şagirdimi – Vüsalı qarşımda gördükdə oğlu əsgərlikdən gələn ana kimi kövrəldim, sevinc göz yaşlarımı saxlaya bilmədim.

...Bəli, ana necə ki övladının yoluna işıqsaçan mayak olub onu aydınlığa çıxarır, müəllim də ömrünü şagirdləri üçün onların yolunda şam kimi əridir. Əriyə-əriyə elin, obanın gözündə ucalır, əbədiləşir. Burada yadıma şair İbrahim Yusifoğlunun "Müəllim ömrü" şeiri düşür:

*Ən parlaq ulduzu, nur saçan aydı,*
*Dalğalı dənizdi, ləpəli çaydı,*
*Ömrü ömürlərə paylanan paydı,*
*Safdı, müqəddəsdi müəllim ömrü.*

Ömürlərə payladığınız ömrünüz uzun olsun, əziz müəllimlər! Ömrünüz də o tükənməz sevginiz kimi paylaşdıqca çoxalsın! Beynəlxalq Müəllimlər Gününüz mübarək olsun!

**Gülcamal TAHİROVA**

## Monitorinq keçirilib

***Muxtar respublikada qadınlara, o cümlədən qadın sahibkarlara göstərilən qayğının nəticəsidir ki, onların özünüməşğulluq mövqeyi güclənir, iqtisadi potensiallarının artırılması istiqamətində mühüm işlər görülür.***



Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra edilən "Qadınların Dayanıqlı İnkişafı üçün Səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində muxtar respublikada yaşayan xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və sağlamlıq imkanları məhdud qadınlara sərmayə kapitalı verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq sərmayə kapitalı alan qadınların yaşadıqları ünvanlarda sərmayə kapitalından düzgün istifadə edilməsi ilə əlaqədar monitorinqlər aparılır. 2021-ci il 30 sentyabr tarixdə sərmayə kapitalı almış 5 qadının yaşadığı ünvanlarda monitorinq keçirilmiş, təyinatına uyğun olaraq sərmayə kapitalından düzgün istifadə etmələri yoxlanılmış, heç bir neqativ hal və nöqsana rast gəlinməmişdir. Əksinə, sərmayə kapitalından düzgün istifadə edərək təsərrüfatlarını genişləndirdikləri məlum olmuşdur. Belə ki, ayrılan sərmayə kapitalı ilə Culfa rayon Kırna kənd sakinləri Elnurə Mirzəyeva, Çiçək Bayramova, Fatma Əliyeva, Bənəniyar kənd sakini Xasa Məhərrəmovaya verilən sərmayə kapitalı ilə hər biri bir baş iribuynuzlu heyvan alaraq təsərrüfatlarını qurmuş və inkişaf etdirmişlər. Bundan əlavə, Culfa şəhər sakini Aidə İbrahimova aldığı sərmayə kapitalı ilə toxuculuq məmulatları – hana və alətlər almış, həmin məmulatlardan təyinatına uyğun olaraq istifadə etmiş və əlavə gəlirə sahib olmuşdur.

Monitorinqin sonunda sərmayə kapitalı alan qadınlar məşğulluqlarının təmin olunması istiqamətində dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## 2021-ci ilin oktyabr ayında rayon (şəhər) Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) Məşğulluq mərkəzləri | Yarmarkanın keçiriləcəyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Mədəniyyət Şöbəsinin binası | 08.10.2021 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Mədəniyyət Şöbəsinin binası | 12.10.2021 | $11^{00}$ |
| 3. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 13.10.2021 | $11^{00}$ |
| 4. | Şahbuz rayonu | Şahbuz şəhər "Araz" kinoteatrının binası | 15.10.2021 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət Şöbəsinin binası | 18.10.2021 | $11^{00}$ |
| 6. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 19.10.2021 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur rayon Olimpiya İdman Kompleksinin inzibati binası | 21.10.2021 | $11^{00}$ |
| 8. | Babək rayonu | Mədəniyyət Şöbəsinin binası | 22.10.2021 | $11^{00}$ |


### İtmişdir

Hacıyev Elmar Abbas oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini İsmayılova Gülnaz Fərman qızının adına olan evin 7550 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Xələc kəndində yaşamış Rzayeva Maral Zülfüqar qızının adına verilmiş JN-41 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Nəzərov Namiq Asəf oğlunun adına olan KİA Sportage 2012 markalı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Zülfüqarov Tacir Ədalət oğluna məxsus AD-0054012 seriya nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun şəxsi vəsiqəsi və hərbi hissəyə buraxılış vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 820